## DANIŞ MƏNƏ, NECƏSƏN...



Müsfiqə Baladdinqızı

Salam, mənim kövrək arzum!
Niyə belə susqunsan?
Bu mənəm də... unudulmaq,
Nə asanmış, nə asan?

Həyat coşub, qanadlanır,
Qönçələnir çiçəktək.
Nə yığmısan öz başına,
Qəm-kədəri bir ətək.

Ürəyimdə, bir kənarda,
Qıvrılmısan necə sən?
Danış mənə dinməyəli,
Danış, görüm, necəsən?

Mən böyüdüm, yaşa doldum,
Sənsə hələ balaca.
Mənə gəlib çatmaq üçün,
Böyü sən də bir azca.

Böyü mənə çıraq gətir,
Qanad gətir uçmağa.
Bu qaranlıq həyatımın
Yoluna nur saçmağa..

Salam, mənim kövrək arzum!
Yorulmusan necə sən!...
Danış mənə, dinməyəli,
Danış, görüm, necəsən?...

## BİTMƏK BİLMƏYƏN PAYIZ YAĞIŞIM...

Bitmək bilməyən payız yağışı kimisən
Nə üşüdürsən, nə isidirsən.
Ürəyimin dərinliyinə axıb-axıb dolmusan.
Hərdən gözümdən gəlirsən,
İsladırsan yanağımı,
Qovuşdurub kirpiklərimi
Yuxu gətirirsən gözlərimə.

Ağladıqdan sonra gələn şirin yuxu kimi,
Sübhün əzik parıltısında
göz açmağa qoymayan şirin yuxu kimisən.
O səma gözlərindəmi sehrin?
Ya, səmanın aydınlığındamı, bilmirəm?
Bilmirəm...

Qatıb qabağına aparır ürəyimi
məndən alıb, qoparır ürəyimi,
Dəniz dalğası kimi vurur qayalara,
ləpəsində iz qoyur ləpiriylə.
Bitmək bilməyən payız yağışı kimisən
Nə üşüdürsən, nə isidirsən...

* * *

Mən daha yerinə bir rəsm cızdım,
Saçları boyasız bəm-bəyaz ana.
O gün ki, sən mənə yeni yol yazdın,
Az qaldı balaca qəlbim dayana.

Daha xatırlaya bilmirəm səni,
Üzünün rəngini, təbəssümünü.
Körpələr evinin astanasında,
Elə o qapıda unutdum səni.

Son dəfə gözümə baxdı gözlərin,
Bilmirəm qaraydı, yoxsa qəhvəyi.
Səndən daha heç nə xatırlamıram,
Soyuq ürəyindən başqa heç nəyi.

Suallar, sorğular didir qəlbimi,
Sən nəyi qazandın, nəyi itirdin.
Əgər sənin üçün dəyərsizdimsə,
Məni bu dünyaya niyə gətirdin?

Mənim xəyalımdan anam çağırır ,
Mənə lay-lay deyir ,"can" deyir qadın.
Sənin həyatında çoxmu yer tutdum,
Ay, mənə can verən, can alan qadın?

Körpələr evi də isinmir heç vaxt,
Sənin o sonuncu əllərin kimi.
Cızır hər saniyə vərəm çöpləri,
Dağıdır günbəgün ciyərlərimi.

Həkimlər ümidə bükürlər məni,
Gözəl göstərirlər mənə sabahı.
Basdırdım qəlbimə ümidlərimi,
Həsrətin vərəmi sağalmır axı

## BÜTÜN AYRILIQLAR

Hər addım aldadır məni bu gecə,
Bu boş küçələrin döngəsi kimi.
Gözlərim yollara uzanıb gedir,
İşıq dirəyinin kölgəsi kimi.

Əllərin üstümdən çəkib əbədi,
Bütün arzularım gözümdən düşür.
Baş alıb harasa gedir ürəyim,
Yolu xəyalının izindən düşür.

O dərya gözündə hər yan dənizdir,
Coşqun dalğasında itib gedirəm.
Bəlkə, mən üzməyi öyrənməmişəm,
Dəniz gözlərində batıb gedirəm.

Bütün ağrılara təklənən ürək,
Hər sevgi nağlına yeni ad verir.
Fərqli görünsə də hekayələri,
Bütün ayrılıqlar eyni dad verir.

Kaspi.-2020.-4-6 iyul.-S.12.